

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 115 (23.527)

18 iyul 2020-ci il, şənbə

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin üçüncü sessiyasının çağırılması haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin

## Qərarı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 18-ci maddəsinin I hissəsini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

I. Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin üçüncü sessiyası 2020-ci il iyul ayının 21-də saat 11[00]-da Naxçıvan şəhərində çağırılsın.

II. Sessiyanın müzakirəsinə aşağıdakı məsələ verilsin:

2020-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları

III. Sessiyanın iclasına aidiyyəti təşkilatların rəhbərləri və dövlət mətbuat orqanlarının nümayəndələri dəvət olunurlar.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 17 iyul 2020-ci il*

---

*“İxrac ili” – 2020*

## Muxtar respublikada sahibkarlığın inkişafı dinamik xarakter daşıyır

***Son illərdə həyata keçirilən sənayeləşmə siyasətinə uyğun olaraq müasir standartlara cavab verən yüzlərlə müəssisə fəaliyyətə başlamış, yeni sənaye sahələri yaradılmış, tələbatın ödənilməsində yerli məhsulların payı əhəmiyyətli dərəcədə artmışdır. Bu gün sənayenin inkişafına yeni təkan vermək, özəl sektorun davamlı inkişafını təmin etmək və əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq məqsədilə sənaye zonalarının yaradılması uğurla davam etdirilir.***

Son illərdə muxtar respublikanın gələcək inkişaf dinamikasını müəyyənləşdirən sənayenin inkişafı istiqamətində həyata keçirilən tədbirlər, o cümlədən sənaye məhəllələrinin qurulması, ixracyönümlü sənaye məhsullarının istehsalının genişləndirilməsi, emal müəssisələrinin, böyük sənaye komplekslərinin yaradılması diqqətdə saxlanılmışdır. Bunun nəticəsidir ki, 2020-ci ilin ötən dövrü ərzində 450 milyon 876 min manatdan çox sənaye məhsulu istehsal edilmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 1 faiz çoxdur.

Sosial-iqtisadi inkişafa dair bu günə qədər reallaşan Dövlət proqramlarının icrası çərçivəsində muxtar respublikada böyük işlər görülmüş, infrastruktur layihələri həyata keçirilmişdir. İnvestisiya mühiti xeyli yaxşılaşmış, yeni iş yerləri yaradılmışdır. Cari ilin ötən dövrü ərzində iqtisadiyyatın bütün sahələri üzrə dövlət maliyyə dəstəyi və özəl investisiya hesabına 81 istehsal və xidmət sahəsi istifadəyə verilmiş, 38 sahənin yaradılması davam etdirilmişdir. Yeni yaradılan bu müəssisələr hesabına, ümumilikdə, 352 yeni iş yeri açılmışdır ki, bu da əhalinin məşğulluğunun təmin olunmasında mühüm əhəmiyyət kəsb edir.

Həyata keçirilən kompleks islahatlar onu deməyə əsas verir ki, muxtar respublikada kiçik və orta sahibkarlığın inkişafı iqtisadi siyasətin prioritet istiqamətinə çevrilmişdir. Bu gün muxtar respublikada çoxsaylı sahibkarlıq subyektinin fəaliyyət göstərməsi, xarici iş adamlarına əlverişli mühitin yaradılması, ümumi daxili məhsul istehsalında özəl bölmənin payının artaraq 87 faizi ötməsi bu siyasətin real bəhrələridir.



Naxçıvanda sahibkarlıq fəaliyyətinə kənar müdaxilələrin qarşısının alınması, onların hüquqlarının müdafiəsi də diqqətdə saxlanılır. 2020-ci ilin ötən dövrü ərzində “Qaynar xətt” vasitəsilə 2679 sahibkarlıq subyekti ilə maarifləndirmə işləri aparılmış, onlar müxtəlif tədbirlər haqqında məlumatlandırılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə sahibkarlığın inkişafı istiqamətində ardıcıl, səmərəli və sistemli tədbirlər görülmüş, sahibkarlıq subyektlərinə səmərəli maliyyə dəstəyinin göstərilməsi mexanizmi formalaşdırılmışdır. Muxtar respublikada sahibkarlığın, xüsusilə kiçik və orta sahibkarlığın inkişafına köməklik etmək, onlara maliyyə dəstəyi göstərmək və əhalinin məşğulluğunun təmin edilməsinə şərait yaratmaq məqsədilə Sahibkarlığın İnkişafı Fondu tərəfindən muxtar respublika üzrə 2000-ci ildən ötən dövr ərzində 1432 layihənin maliyyələşdirilməsinə 160 milyon manatdan çox vəsait ayrılmışdır. Təkcə 2020-ci ilin ötən dövrü ərzində fond tərəfindən sahibkarlara 62 layihənin maliyyələşdirilməsinə, ümumilikdə, 7 milyon 790 min manatdan çox kredit vəsaiti verilmişdir. Bundan sənaye məhsulu yönümlü 4 layihənin maliyyələşdirilməsinə 6 milyon 236 min manat, kənd təsərrüfatı yönümlü 58 layihənin maliyyələşdirilməsinə 806 min manatdan çox dövlət maliyyə dəstəyi göstərilmişdir.





Aqrar sektorun aparıcı qüvvələrindən olan ailə təsərrüfatlarının formalaşaraq kiçik sahibkarlıq subyektlərinə çevrilməsi, eləcə də onların fəaliyyətinin stimullaşdırılması ilə bağlı həyata keçirilən tədbirlər muxtar respublikada ailə təsərrüfatlarının sayının gündən-günə artmasına səbəb olmuşdur. Ailə təsərrüfatlarının fəaliyyətinin stimullaşdırılması məqsədilə 2020-ci ilin ötən dövründə Sahibkarlığın İnkişafı Fondu tərəfindən 26 ailə təsərrüfatına 231 min 600 manat həcmində dövlət maliyyə dəstəyi göstərilmişdir.

Sahibkarlığa göstərilən qayğı, öz növbəsində, yerli istehsalın inkişafına da şərait yaradır. Məhz bu amil nəzərə alınaraq, muxtar respublikada iqtisadiyyatın bütün sahələrində yeni istehsal və xidmət sahələri yaradılır, mövcud olanların fəaliyyəti bərpa edilir. Son illərdə 400-dən çox sənaye müəssisəsinin yaradılması, bu müəssisələrdə 383 növdə məhsul istehsal olunması, 350 növdə məhsula olan tələbatın tamamilə yerli istehsal hesabına ödənilməsi sahibkarlığın inkişafının nəticəsidir.

2020-ci ilin muxtar respublikada “İxrac ili” elan olunması yerli istehsal məhsullarının ixrac imkanlarını artırmaqla yanaşı, iqtisadi əlaqələrin daha da genişləndirilməsinə böyük stimul vermişdir. İxracyönümlü məhsul və xidmətlərin xarici bazarlarda təşviqi, yeni tərəfdaşların tapılması, ixrac coğrafiyasının genişləndirilməsi məqsədilə beynəlxalq tədbirlərdə muxtar respublika ixracatçılarının iştirakının təmin edilməsi və ixrac üçün potensial və perspektivli sayılan dövlətlərdə müvafiq sərgilərin, forumların təşkili və digər təşviqat tədbirlərini gücləndirmək də əsas prioritetlərdəndir. Belə ki, cari ilin ötən dövründə biri onlayn olmaqla, 4 sahibkarlıq subyektinin və 1 ailə təsərrüfatçısının 18 nümayəndəsi 4 beynəlxalq əhəmiyyətli tədbirdə iştirak etmişdir.

*Muxtar respublikada özəl sektora göstərilən hərtərəfli diqqət və qayğının nəticəsidir ki, sahibkarlıq mühiti getdikcə inkişaf edir, özəl sektor ümumi iqtisadiyyatda öz çəkisini artırır.*


**Mehparə MƏMMƏDOVA**

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin Elmi-Tədqiqat Tədris Mərkəzinin elmi işçisi***


---

## Üzümçülük təsərrüfatının ixrac imkanları genişləndirilir



*2020-ci ilin muxtar respublikada “İxrac ili” elan edilməsi iqtisadi inkişafın prioritet istiqaməti kimi muxtar respublikanın xarici ölkələrlə qarşılıqlı ticarət əlaqələrinin daha da genişləndirilməsinə, xüsusilə də idxalın həcminin azaldılması və ixrac potensialının gücləndirilməsi istiqamətində əsaslı işlərin görülməsinə böyük təkan verib. Verilən tapşırıqların icrası istiqamətində həyata keçirilən tədbirlərin nəticəsidir ki, Nehrəm qəsəbəsindəki “Sumqala” üzümçülük təsərrüfatı da ixrac üçün məhsulların istehsalını xeyli genişləndirməyi qarşısına məqsəd qoyub.*

Məlumat üçün bildirək ki, 2015-ci ildə yaradılan üzümçülük təsərrüfatı 300 hektara yaxın ərazini əhatə edir, bağlardan hər il bol məhsul götürülür. Yığılan məhsullar yerli tələbatı ödəməklə yanaşı, ölkəmizin digər bölgələrinə, həmçinin Rusiya və Ukrayna bazarlarına da çıxarılır. Aqrotexniki tədbirlərin vaxtında və tələblərə uyğun həyata keçirildiyi təsərrüfatda hazırda 470-dən çox rayon sakini mövsümi işlə təmin olunub. Yaxın dövrdə məhsul yığımı həyata keçiriləcək. Süni suvarma sisteminin quruldüğu ərazidə xüsusi metrologiya avadanlıqları quraşdırılıb ki, bu da plantasiyanın hansısa hissəsində nəmlik səviyyəsi aşağı düşdükdə məlumatı dərhal sistemə ötürərək suvarma qurğusunu avtomatik olaraq işə salır.

Xatırladaq ki, bu ildən etibarən təsərrüfatda üzümün daşınması üçün yeni plastik səbət istehsalı sahəsi də fəaliyyətə başlayıb. Burada tutumu 2500 ton olan soyuducu anbarın inşa olunması isə imkan verir ki, istehsal olunan məhsul uzun müddət keyfiyyətini itirmədən saxlanılsın və nəfis şəkildə bazara çıxarılsın. 220 hektarını üzüm kolları təşkil edən təsərrüfatın ərazisində əlavə olaraq meyvə bağı da salınıb. Bu il 23 hektar ərazini əhatə edən alma bağından məhsul yığımı həyata keçirilib. Bundan əlavə, təsərrüfatın 5 hektarlıq ərazisində şaftalı, 10 hektarında yeni badam, bu ilin ötən dövrü ərzində isə 22 hektar ərazidə 4 məhsuldar sortdan ibarət yeni gilas bağı salınıb. Xarici sort gilas ağaclarının əkildiyi bağdan ərsəyə gələcək məhsul bu meyvəyə olan tələbatın tamamilə yerli istehsal hesabına ödənilməsini təmin edəcək.

İlbəil fəaliyyətini daha da genişləndirən “Sumqala” üzümçülük təsərrüfatı daxili bazarın müxtəlif növ meyvələrlə təminatında böyük paya malikdir. Yaxın gələcəkdə üzüm bağlarından toplanacaq məhsul təkcə muxtar respublikamızda satılmayacaq, həm də xarici bazarlara göndəriləcək.

---

*Şərurda kartofun əkilib-becərilməsi ənənəsinin tarixi qədim olduğundan ailə təsərrüfatlarında da bu istiqamətdə yetərincə təcrübə var. İstər əkində və becərmədə, istərsə də məhsul yığımında aqroliziinq xətti ilə gətirilən yeni texnikalardan istifadə edilir.*

## Sahələrdən bol məhsul toplanılır

Məlumat üçün bildirək ki, ötən il 1100 hektara yaxın sahədə kartof əkib-becərən torpaq mülkiyyətçiləri 17 min tona yaxın məhsul istehsal ediblər. Bu il də məhsuldarlığın yüksəldilməsi və əkin sahələrinin daha da artırılması istiqamətində müvafiq işlər görülüb, kartof əkini sahələri genişləndirilərək 1350 hektara çatdırılıb. Hazırda sahələrdə kartof yığımı həyata keçirilir.

Rayonun Ələkli, Sərxanlı, Aralıq, Zeyvə, Cəlilkənd, Məmmədsabir, Düdəngə və digər kəndlərin torpaq mülkiyyətçiləri kartof əkinlərinə daha çox üstünlük verirlər. Cəlilkənddə Xəqani İsmayılovun başçılıq etdiyi ailə təsərrüfatı kartofçuluq sahəsində böyük təcrübəyə malikdir. Ailə təsərrüfatı üzvləri ötən il 4 hektar sahədən bazar və yarmarkalara 160 tondan çox keyfiyyətli məhsul çıxarıblar. Bu il isə onlar əkin sahələrini genişləndirərək 6 hektara çatdırıblar. Digər sahibkarların da əkin sahələrində aqrotexniki qaydalara düzgün əməl edildiyindən məhsuldarlıq yüksəkdir. Əldə edilən faraş kartof Şərur və Naxçıvan şəhərlərindəki bazarlara çıxarılır. Məhsulun bir hissəsi isə soyuducu anbarlara təhvil verilir. Məhsul yığımında kartofçıxaran maşınlardan istifadə əl əməyini yüngülləşdirir.


**Xəbərlər şöbəsi**

# Hərbi liseydə gələcəyin zabitləri yetişdirilir

## Bu təhsil ocağında vətənpərvərlik tərbiyəsi yüksək səviyyədədir



*Görkəmli dövlət xadimi Heydər Əliyev hələ Sovetlər İttifaqı dövründə, azərbaycanlıların hərb sahəsindən uzaq salındığı zamanlarda ölkəmizdə hərbi təhsilin inkişafına xidmət edən islahatlar aparılmasına ciddi önəm verirdi. Ulu öndər deyirdi:* ***"Biz bu işə başlayanda o, bizim üçün nəzəriyyə deyildi, böyük gələcəyə baxış idi, Azərbaycanın gələcəyinə baxış idi, Azərbaycanda ilk milli zabit kadrlarının hazırlanması üçün ilk addımlar idi. Biz bu addımları atarkən düşünürdük ki, zaman gələcək, Azərbaycan xalqı öz milli azadlığını əldə edəcək, dövlət müstəqilliyini əldə edəcək, müstəqil Azərbaycan dövləti yaradacaq".***

1971-ci ildə Cəmşid Naxçıvanski adına Respublika Hərbi Təyinatlı Orta İnternat Məktəbi yaradılması da bunun ifadəsi idi. 1972-ci ildən başlayaraq yüzlərlə azərbaycanlı gəncin Sovet İttifaqının müxtəlif ali hərbi məktəblərinə təhsil almağa göndərilməsi də ulu öndərin bu sahədə yüksək təşəbbüskarlıqlarla həyata keçirdiyi tədbirlərdən biri oldu. Məhz həmin dövrdə yetişdirilən milli hərbçi kadrlar ölkəmiz müstəqillik qazandıqdan sonra ordu quruculuğunda mühüm rol oynayıblar.

Ümummilli liderimiz ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra da milli ordu quruculuğu sahəsində daha geniş tədbirlər görülməsini vacib sayırdı. ***"Müstəqil Azərbaycanın bu gün də, gələcəkdə də çox güclü ordusu olmalıdır. Olmalıdır ki, torpaqlarımız bundan sonra işğal edilməsin. Olmalıdır ki, torpaqlarımızın hər bir qarışı qorunabilsin. Olmalıdır ki, dünya tarixində böyük yer tutmuş sərkərdələr kimi müstəqil Azərbaycanın özünün də hərbi sərkərdəsi olsun"***, – deyən ulu öndərin müdrikliyi və uzaqgörənliyi sayəsində ölkəmizdə qüdrətli milli ordu yaradılıb, onun ixtisaslı hərbçi kadrlarla təminatı diqqət mərkəzində saxlanılıb. Naxçıvanda hərbi təmayüllü məktəbin yaradılması da məhz bu uzaqgörənliyin nəticəsində mümkün olub. Dahi rəhbərin 1998-ci il 13 mart tarixli Sərəncamı ilə Azərbaycan Ordusunun peşəkar hərbi kadrlara olan tələbatını ödəmək, Naxçıvan Muxtar Respublikasında gənclərin hərbi təhsil alması üçün əlverişli şərait yaratmaq məqsədilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin bazasında Naxçıvan filialının fəaliyyətə başlaması ulu öndərin bu istiqamətdə həyata keçirdiyi tədbirlərin davamlı xarakter alması kimi dəyərləndirilib.

1999-cu ilin oktyabrında filialın yeni tədris korpusunun açılışında iştirak edən görkəmli dövlət xadimi Heydər Əliyev bu hərbi təhsil müəssisəsinin yaradılması zərurətindən danışaraq deyib: ***"Tarixən naxçıvanlı gənclər zabit peşəsinə yiyələnməyə meyilli olublar. Tarixi vərəqləyin, görün Naxçıvandan vaxtilə nə qədər böyük sərkərdələr çıxıbdır. Elə XIX-XX əsrlərin tarixini götürək. Naxçıvan xanları – Kəngərlilər sülaləsindən çar Rusiyasının ordusunda altı general var idi. Onlardan sonuncusu Cəmşid xan Naxçıvanski idi. Əgər sonrakı dövrü, sovet hakimiyyəti dövrünü götürsək, Naxçıvandan yüksək rütbəli, çox dəyərli zabitlər çıxıbdır. ...Ona görə də burada olan gəncləri hərbi peşəyə cəlb etmək üçün hərbi liseyin filialının yaradılması çox zəruri idi".*** Həmin dövrdə 56 kursantla fəaliyyətə başlayan filial ötən dövr ərzində böyük inkişaf yolu keçib, Naxçıvanda gənclərin hərb sənətinə marağının artmasına səbəb olub.



Ümummilli liderimiz Heydər Əliyevin milli ordu quruculuğu siyasətini bu gün uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev milli ordu quruculuğunu, gənc hərbçi kadrların yetişdirilməsini prioritet məsələ kimi diqqət mərkəzində saxlayır. Ölkə başçısının 2004-cü il 27 fevral tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının Silahlı Qüvvələri üçün hərbi kadr hazırlığı sistemini təkmilləşdirmək və milli ordunun peşəkar kadrlara olan tələbatının ödənilməsi işini yaxşılaşdırmaq məqsədilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının əsasında Heydər Əliyev adına Hərbi Lisey yaradılıb.

Müdafiə Nazirliyinin strukturunda fəaliyyət göstərən və ali təhsilin bakalavr səviyyəsi üzrə mütəxəssis hazırlayan xüsusi təyinatlı ali təhsil müəssisələri üçün zəruri biliklərə yiyələnmiş, milli-mənəvi, ümumbəşəri dəyərlərə malik sağlam əqidəli, vətənpərvər, cəsur, mətin, intizamlı və müasir dünyagörüşlü kursant hazırlayan bu təhsil müəssisəsində ötən dövrdə geniş quruculuq işləri aparılıb, burada ümummilli liderin büstü ucaldılıb, görkəmli dövlət xadiminin həyat və fəaliyyətinin müəyyən məqamlarını özündə əks etdirən muzey yaradılıb, ikimərtəbəli qərargah binası, müasir tədris korpusu və yataqxana binası istifadəyə verilib, maddi-texniki baza xeyli gücləndirilib, kursantların yaşayış şəraiti yaxşılaşdırılıb.

Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev 2005-ci il dekabrın 19-da liseydə yaradılan şəraitlə tanış olub, kursantlar qarşısında çıxış edərək deyib: ***"Heydər Əliyev adına Hərbi Liseydə oxumaq böyük şərəfdir və böyük məsuliyyətdir. Bu liseydə təhsil alan gənclər gələcəkdə bizim ordumuzda xidmət edəcəklər. Azərbaycanın müstəqilliyinin keşiyində duracaqlar".***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Heydər Əliyev adına Hərbi Liseyin fəaliyyətini daim diqqət mərkəzində saxlayır, tədrisin günün tələbləri səviyyəsində təşkili üçün qayğısını əsirgəmir. Bunun nəticəsidir ki, liseydə kursantların hərbi biliklərə dərindən yiyələnməsi üçün hər cür şərait yaradılıb. Tədris və yataqxana korpusları ən müasir avadanlıqlarla təchiz olunub. 750 yerlik yataqxana binasında müasir məişət şəraiti ilə yanaşı, kursantların asudə vaxtlarının səmərəli təşkili və istirahəti də təmin edilib, gündəlik mətbuatı izləmək, şahmat və digər idman növləri ilə məşğul olmaq imkanı yaradılıb. Liseydə kursantların sağlamlığı, fiziki hazırlığı və qidalanması da diqqət mərkəzində saxlanılır. Müasir avadanlıqlarla təchiz olunmuş 25 çarpayılıq tibb məntəqəsi, idman zalı, futbol meydançası, açıq və qapalı idman qurğuları və digər obyektlər kursantların istifadəsinə verilib.





Liseyin daim təkmilləşdirilən maddi-texniki bazası tədrisin keyfiyyətini yüksəldib. Yaradılan müasir tədris şəraiti, istifadəyə verilən əyani vəsaitlər istər hərbi, istərsə də elmi biliklərin dərindən mənimsənilməsinə və təcrübə əsasında möhkəmləndirilməsinə geniş imkanlar açır. Liseydə 26 sinif otağı, fənn kabinələri, kimya, biologiya, fizika laboratoriyaları, hərbi kabinə, 2 kompüter və 2 linqafon otağı vardır. Sinif otaqları müasir avadanlıqlarla təchiz edilib, elmi, bədii, hərbi və tarixi ədəbiyyatlarla, ensiklopedik nəşrlərlə təmin olunmuş zəngin kitabxana kursantların istifadəsinə verilib. Hərbi liseydə elektron tədris sistemi vasitəsilə interaktiv dərslərin keçirilməsi diqqət mərkəzində saxlanılır. Bu məqsədlə zəngin elektron dərslik bazası yaradılıb, 11 sinif otağında elektron lövhə quraşdırılaraq distant təhsil sisteminə qoşulub.

2015-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə istifadəyə verilən hərbi kabinə və atəş hazırlığı sinfi gələcəyin zabitlərində ilkin peşə vərdişlərinin formalaşmasına xidmət edir. Burada quraşdırılan "Gilavar" və "Scatt" tipli atış trenajorları vasitəsilə kursantların real şəraitə uyğun olaraq nişanalma bacarıqları inkişaf etdirilir, yoxlanılır və qiymətləndirilir.

Bütün bu imkanlardan səmərəli istifadə edən müəllim-zabit heyəti bilikli, vətənpərvər, sağlam və əqidəli hərbçilərin yetişdirilməsində əllərindən gələni əsirgəmirlər. Dərslərlə yanaşı, müxtəlif disput, olimpiada və yarışlar təşkil olunur, kursantların muxtar respublikada keçirilən tədbir və yarışlarda iştirakı təmin edilir. Bütün bunların nəticəsidir ki, Heydər Əliyev adına Hərbi Liseyin göstəriciləri ildən-ilə artır, ali hərbi məktəb və akademiyalara qəbul olunan kursantların sayı çoxalır. Təsadüfi deyil ki, hərbi lisey təhsil sahəsindəki nailiyyətlərinə görə 2008-2009-cu tədris ilində ölkəmizdə keçirilən "Ən yaxşı ümumtəhsil məktəbi" müsabiqəsinin qalibi olub. Liseyin kursantları ötən dövr ərzində Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən keçirilən fənn olimpiadalarında 2 qızıl, 1 gümüş, 12 bürünc medala layiq görülüblər. Eyni zamanda gələcək zabitlər muxtar respublika üzrə keçirilən müxtəlif inşa yazı və şeir müsabiqələrində ön yerlərə sahib olublar.



Kursantlar muxtar respublika və Əlahiddə Ümumqoşun Ordu üzrə təşkil olunan idman yarışlarında da fəal iştirak edirlər. Belə ki, liseyin idmançıları ötən ilin sentyabr ayında Naxçıvan Muxtar Respublikası üzrə ali və orta ixtisas təhsili müəssisələri arasında yüngül atletika idman növü üzrə birincilikdə komanda üzrə I, oktyabr ayında cüdo birinciliyində komanda hesabında III, noyabr ayında ali və orta təhsil müəssisələri arasında TİR idman növü üzrə birincilikdə I, dekabr ayında kinqboks birinciliyində fərdi yarışda müxtəlif çəki dərəcələrində I, II və III, Əlahiddə Ümumqoşun Ordu üzrə keçirilən cüdo birinciliyində 73 kiloqram çəki dərəcəsində I yerlərə layiq görülüblər.

Cari ildə liseydə 188 kursant təhsilini başa vurub. Onlardan biri gümüş, biri qızıl medala layiq görülüb. Ümumilikdə, 1998-2020-ci illər ərzində hərbi liseyə 4000-dən çox kursant qəbul olunub, 2001-2019-cu illər ərzində liseyi 3300-dən çox məzun bitirib. Liseyi bitirən məzunların 124-ü xarici ölkələrdə (Türkiyə, Rusiya, İtaliya) təhsil alıb, onlardan 69-u (Türkiyə, Rusiya, Cənubi Koreya) hazırda təhsillərini davam etdirir.

Silahlı Qüvvələrimizdə bu liseyin 2000-ə yaxın məzunu zabit kimi xidmət edir. Onların səkkizinin ərazi bütövlüyümüz uğrunda öz canını qurban verərək şəhidlik zirvəsinə ucalması liseydə hərbi-vətənpərvərlik tərbiyəsinin yüksək səviyyədə formalaşdırılmasının nəticəsidir. Liseyin kollektivi unutmur ki, pedaqoji prosesin səmərəliliyini təmin edən amillərdən biri təlim və təhsillə vəhdətdə olan tərbiyə işidir. Tərbiyə işində əsas məqsəd kursantlarda milli və ümumbəşəri dəyərlər, hərbi psixologiya formalaşdırmaq və onların Vətənə məhəbbət hisslərini inkişaf etdirmək, təhsillə bərabər, həm də yüksək mənəvi dəyərlərə, dövlətinə, xalqına sədaqətli, hərtərəfli dünyagörüşə malik şəxsiyyət yetişdirməkdir.

Bu gün qürur hissi ilə demək olar ki, Heydər Əliyev adına Hərbi Lisey ulu öndərin adına layiq, nümunəvi təhsil müəssisəsi kimi milli ordumuzun savadlı, bacarıqlı, ləyaqətli, vətənpərvər zabitlərlə təmin olunması yolunda səmərəli fəaliyyət göstərir. Hərbi Liseyin zabit-müəllim heyəti, kursant və məzunları bu şərəfli adı doğrultmağa çalışır, Heydər Əliyev yoluna sədaqət nümayiş etdirirlər.

Liseydə gözəl ənənələr yaradılmasını da xüsusi qeyd etmək lazımdır. Bu ənənələrdən biri Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin hər il liseyi bitirən məzunlarla görüşüdür. Görüşlərdə liseyin keçdiyi yola nəzər salınır, tövsiyələr verilir, fərqlənən kursant və müəllimlər mükafatlandırılır. Cari ilin iyun ayının 17-də liseyin 20-ci buraxılışı münasibətilə keçirilən tədbir kursantlarda onlara, məzunların gələcək fəaliyyətinə böyük inam və etimadın ifadəsi olub. Tədbirdə Ali Məclisin Sədri deyib: ***"O ordu qüdrətlidir ki, onun sıralarında peşəkar və sağlam mənəviyyata malik olan vətənpərvər zabitlər xidmət edir. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, "Ordunun qüdrətini, onun döyüş qabiliyyətini, qələbə iradəsini təşkil edən döyüşçülərin vətənpərvərlik hissidir. Hər bir zabit vətənpərvərlik hissini, Vətənə, torpağa, müstəqil dövlətimizə, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır". Məzun olan hər bir kursant gələcək təhsil və xidmət dövründə ümummilli liderimizin tövsiyələrini əsas götürməli, Vətənimizə, dövlətimizə və xalqımıza sədaqətlə xidmət etməlidir. Qarşınızda bir əsas vəzifə durur: o da təhsil aldığınız liseyin adına layiq peşəkar hərbi qulluqçu kimi yetişməkdir. Liseyin məzunları bundan sonra da təhsili və nizam-intizamı ilə seçilməli, hərb sənətinə dərindən yiyələnməli, mütaliə etməli, yeni texnologiyaları, müasir silahları, hərbi texnikanı mükəmməl mənimsəməli, dünyagörüşlərini daim artırmalıdırlar. Zabit adını daşımaq böyük məsuliyyətdir. Peşə vərdişi, fiziki və nəzəri hazırlığı ilə bərabər, zabit həm də mənəvi keyfiyyətləri ilə seçilməlidir. Tariximizi, dəyərlərimizi və qəhrəmanlıq ənənələrimizi yaxşı öyrənməli, rəhbərlik etdiyi şəxsi heyətin bu əsasda mənəvi-psixoloji hazırlığına nail olmalıdır".***

*Ali Məclis Sədrinin bu tapşırıq və tövsiyələri təkcə 20 yaşlı liseyin kursantlarının deyil, müəllim və zabit heyətinin də qarşısında mühüm vəzifələr qoyur. Başlıca vəzifə isə kursantlara hərbi-vətənpərvərlik tərbiyəsinin bundan sonra da yüksək səviyyədə aşılanması, onların bu ruhda formalaşdırılmasının diqqətdə saxlanılmasıdır. Ərazi bütövlüyümüzün, müstəqilliyimizin, dövlətçiliyimizin qorunmasında bu amillər əsas şərtlərdir. Onların qorunması isə bizim vətəndaşlıq borcumuzdur.*

**Muxtar MƏMMƏDOV**

***Milli özünüdərkin bərqərar olmasında, vətənpərvərlik hisslərinin aşılanmasında, milli və ümumbəşəri dəyərlərin təbliğində müstəsna rol oynayan Naxçıvan mətbuatı xalqımızın azadlıq və müstəqillik uğrunda mübarizəsinə öz böyük töhfəsini verib. Yarandığı və fəaliyyət göstərdiyi illər ərzində Naxçıvan mətbuatı zəngin və mənalı bir inkişaf yolu keçib. XX əsrin 30-cu illəri Azərbaycanın da daxil olduğu keçmiş Sovet İttifaqında kollektivləşmə, kolxoz quruculuğu dövrü kimi xarakterizə olunur. Kollektivləşmə siyasətinin həyata keçirilməsi başlıca məsələlərdən birinə çevrilirdi. Bu dövrdə Naxçıvanın siyasi həyatı daha gərgin idi.***

*Azərbaycan milli mətbuatı — 145*

# Naxçıvanda bölgə mətbuatı:
## *tarix və müasirlik*



Belə bir dövrdə mətbuatın üzərinə xüsusi missiya düşürdü. Məhz bu illərdə rayonlarda da yerli mətbuatın təməli qoyulur. Naxçıvan Muxtar Respublikasının Şərur ("Pambığa doğru", 1931), Ordubad ("Ordubad fəhləsi", 1932), Əbrəqunus ("Zərbəçi heyvandar", 1932), Culfa ("Bolşevik yolu", 1932) və Şahbuz ("Sosializm maldarlığı", 1936), rayonlarında yerli qəzetlər nəşrə başlayır. Qəzet mətbəələrində texniki prosesi yaxşılaşdırmaq məqsədilə 1934-cü ilin yayında Bakı poliqrafiya tresti rayon və siyasi şöbə qəzetlərinin mətbəələri üçün birillik kurs təşkil etdi. Bu kursu bitirənlər sırasında Naxçıvanın rayon qəzetlərinin əməkdaşları da var idi. Və bununla qəzetlərin normal nəşri təmin olunmağa başlandı. 30-cu illərin qəzetlərində rayonların həyatında elə bir sahə yox idi ki, qəzetlər ora yol açmamış olsun. Qəzetlər sosializm quruculuğunun mənzərəsini işıqlandırmaqla yanaşı, israfçılığa, bürokratizmə, mənfi hallara qarşı da mübarizə aparırdılar.

Sovet dövrü muxtar respublikanın rayon qəzetlərində mətbuatın güclü bir təbliğat-təşviqat vasitəsi olduğu açıq-aşkar hiss edilir. Bu dövrdə zəhmətkeş insanların fəaliyyətini əks etdirən yazılara çox yer verilirdi. "Tərəvəzçi Gülzar", "Sağıcı Məsmə", "Qaynaqçı Vəli", "İpəkçi Elenora", "Mürəbbə ustası Məhəbbət", "Çoban Mahmud" və yüzlərlə belə başlıqlı yazılarda kollektivləşmədə zəhmətkeşlərin fəaliyyəti və ayrı-ayrı istehsal sahələrində uğur qazanmış insanların işləri ön plana çəkilirdi. Rayon qəzetlərində çalışan müxbirlərin yüksək sənətkarlıqla yaratdıqları publisistik nümunələrdə biz həmin dövrün insanlarının həyatı, fəaliyyəti, məişəti barədə maraqlı məlumatlar əldə edirik.

Rayon qəzetlərinin II Dünya müharibəsi dövründəki fəaliyyəti də maraqlıdır. Həmin dövrdə burada çalışan müxbirlər öz qələmlərini süngüyə çevirdi. Qəzetlər müxtəlif səpkili yazılarla öz oxucularını qələbəyə ruhlandırır, mübarizəyə səsləyirdi.

Müharibədən sonrakı dövrdə də hökumət mətbuatın səfərbəredici gücündən ideoloji təbliğat vasitəsi kimi istifadə edirdi. Bu mənada, 1946-1947-ci illərdə qəzetlərin fəaliyyətində böyük canlanma duyulur. Rayon qəzetləri təkcə həyatın işıqlı tərəflərini deyil, həm də cəmiyyətdəki neqativ halları, problemləri cəsarətlə açıb göstərirdi. Hər bir rayon qəzeti muxtar respublikanın ictimai-siyasi, sosial həyatının işıqlandırılmasında, qabaqcıl əmək, yaradıcı və ziyalı adamların portretlərinin yaradılmasında mühüm rol oynayırdı.

Sov. İKP MK 1959-cu il iyulun 31-də "Qəzet və jurnalların zərərlə işləməsinə son qoymaq haqqında" Qərar qəbul etdi. Bu qərarla əlaqədar olaraq 1959-cu ilin sentyabr ayında Naxçıvan Muxtar Respublikasında rayon qəzetlərinin nəşri dayandırıldı.

"Şərq qapısı" qəzetinin 5 may 1966-cı il tarixli sayında oxuyuruq: "Sov. İKP MK Rəyasət Heyətinin qərarına əsasən rayon qəzetləri yenidən bərpa olunmuşdur. Həmin qərara əsasən 1966-cı ilin yanvar ayından Naxçıvan Muxtar Respublikasında "Yeni Ordubad" (Ordubad rayonu), "Zəfər" (Culfa rayonu), "Qabaqcıl" (Şahbuz rayonu) və "İşıqlı yol" (Şərur rayonu) qəzetləri çıxmağa başlamışdır".

Rayon qəzetlərinin yenidən nəşrə başlamasından etibarən mövzu genişliyi, janr əlvanlığı, operativlik qəzetlərin başlıca fəaliyyət istiqamətinə çevrilmişdir. Qəzetlərin ana dilimizə, milli-mənəvi dəyərlərimizə qayğıkeş münasibəti, ənənə və novatorluqda normativliyi əsas götürməsi bu mətbu orqanları mükəmməl bir yaradıcılıq məktəbinə çevirmişdir.

Odövrkü mətbuat üçün ən üstün cəhətlərdən biri də qəzetdə tez-tez mənzum felyetonların dərc olunması, eybəcərlik və nöqsanlara qarşı cəsarətlə mübarizə aparılması, oçerklərə geniş yer ayrılması idi. Həmin dövrdə müəssisələrdə hazırlanan divar qəzetlərinin təbliği də xüsusi yer tutur. Bu barədə "Yeni Ordubad" qəzetinin sovetlərin 5 may mətbuat gününə həsr olunmuş 1966-cı il (№32) sayında dərc olunmuş "Mətbuat xalqın tribunasıdır" adlı yazıda oxuyuruq: "Divar qəzetləri sənaye və kənd təsərrüfatı zəhmətkeşlərinin qüvvəsini, dövlət planlarının yerinə yetirilməsini səfərbər etməkdə xeyli iş görürlər. Belə ki, sənaye müəssisələrində, kolxoz və sovxozlarda, məktəblərdə, idarələrdə 90 adda aylıq divar qəzeti buraxılır".

1966-1989-cu illərin rayon qəzetlərinin, demək olar ki, heç birində rastlaşılmayan, yalnız "Yeni Ordubad" qəzetində nəzəri cəlb edən bir məqam var. "Sosialist ölkəm", "Sovet Azərbaycanım", "Böyük Oktyabr", "Demokratik SSRİ" kimi şüarların daha çox səsləndirildiyi bir dövrdə "muxtar respublikamızda" sözünə rast gəlmək olduqca əhəmiyyətli nüansdır. "Yeni Ordubad" qəzetinin 3 noyabr 1966-cı il (№88) tarixli sayında Naxçıvan Muxtar Respublikasında həyata keçirilən tədbirləri əks etdirən xəbərlər məhz "Muxtar respublikamızda" başlığı ilə dərc olunmuşdu.

Bu dövrün qəzetlərində maraqlı məqamlardan biri ilə "Zəfər" qəzetində (Culfa rayonu) rastlaşırıq. Qəzet "Xalq yaradıcılığı" adı altında müxtəlif şifahi xalq ədəbiyyatı nümunələrini oxuculara təqdim edir. Muxtar respublikanın hər bir rayon qəzetində olduğu kimi, "Zəfər" qəzetinin də səhifələrində kifayət qədər tənqidi materiallara rast gəlmək olur. Bu cəhətdən qəzetin 9 fevral 1984-cü il (№18 (2718)) sayı xüsusilə fərqlənir. "İynə" adlı satirik guşədə "Danışa bilsəydim", "Qanmızı qaraltmayın", "Çayxanadır yoxsa..." adlı yazılarda rayonun müxtəlif kəndlərində mədəniyyət evlərinin, çayxanaların xoşagəlməz fəaliyyəti tənqid olunur.

1966-1988-ci illərin rayon qəzetlərini nəzərdən keçirəndə bir heyrətamiz faktla da qarşılaşırıq. Sovet təbliğat maşınının 70 il ərzindəki dini, milli dəyərlərdən uzaqlaşmaq kimi təbliğinə, muxtar respublika sakinləri, sanki heç bir reaksiya verməyib. Aşkarda, gizlində hər bir insan öz inamını, etiqadını davam etdirib.

Bu gün 1972-1989-cu illərin ictimai-siyasi mənzərəsini gözlərimiz önündə canlandırsaq, həmin dövrdə sovet hakimiyyətinin mətbuat üzərində necə ciddi senzura yaratdığını görə bilərik. Buna baxmayaraq, muxtar respublikanın rayon qəzetlərində Azərbaycançılıq ideologiyasına xidmət edən çoxlu yazılar dərc olunub. "Ordubadın bəzi mikrotoponimləri haqqında", "Ordubadın qədim yer adları", "Azərbaycan dili dövlət idarələrində", "Kərkinin taleyi" və digər maraqlı məqalələr yurdumuzun tarixini özündə əks etdirərək xalqa aşılamağa çalışırdı.

1988-1993-cü illərdə respublikada nəşr olunan bütün mətbu orqanların vəziyyəti, demək olar ki, eyni dərəcədə acınacaqlı idi. Belə şəraitdə rayon qəzetlərindən öz istəklərinə uyğun istifadə etməyə çalışan "meydan qəhrəmanları" buna nail ola bilmədiklərindən tez-tez redaksiyalara təzyiqlər göstərir, onları iş otaqlarından çıxarıb qapıları bağlayırdılar. Həmin illəri xatırlayanlar yaxşı bilirlər ki, məhz bu səbəblərdən, vaxt olub ki, həftələrlə redaksiya və mətbəə işçiləri gündüzlər deyil, məhz gecələr işləməyə məcbur olub. Öz oxucuları ilə vaxtaşırı görüşə biliblər.

1988-1993-cü illərdə Azərbaycanda, o cümlədən Naxçıvanda baş verən proseslər muxtar respublikanın rayon qəzetlərinin fəaliyyətində də özünü göstərməyə bilməzdi. Ulu öndərin Naxçıvanda tarixi xilaskarlıq missiyasını həyata keçirdiyi dövrdə Naxçıvan Vilayət Həmkarlar Şurasının "Ağrıdağ" qəzeti də nəşr olunmağa başlamışdır. Qəzet qısa müddət ərzində fəaliyyət göstərməsinə baxmayaraq, milli şüurun oyanmasında əhəmiyyətli rol oynamışdır.

Bu dövrdə ermənilərin əsassız torpaq iddiaları ilə üzləşən xalqımız mətbuat orqanlarında da buna xüsusi yer ayırırdı. Məsələn, "Qabaqcıl" qəzetinin (Şahbuz rayonu) 22 avqust 1989-cu il (№98 (3687)) sayında oxuyuruq: "Qarabağ, biz səninləyik! Əziz həmvətənlərimiz! Xalqı bu çətin imtahandan yalnız onun pozulmaz birliyi və möhkəm iradəsi çıxara bilər".

"Əkinçi" qəzetinin 9 avqust 1876-cı il tarixli (№15) sayındakı "Ey müsəlmanlar, vaxt keçməmiş fikrinizi birləşməyə verin ki, dağınıq millət çox tez puç olar" fikri 100 ildən sonra – 1980-ci illərin sonlarında muxtar respublikanın bölgə qəzetlərinin əsas devizinə çevrilmişdi.

Muxtar respublikada milli şüurun oyanmasında və özünüdərk prosesinin formalaşmasında yerli mətbuatda vətənpərvərlik, milli dəyərlər, özünəqayıdış, azadlıq, müstəqillik ruhunda dərc olunan yazılar mühüm rol oynadı. Xalqımızın ümummilli lideri Heydər Əliyevin Moskvadan Naxçıvana qayıdışından, muxtar respublikaya rəhbərlik etməyə başlamasından sonra Naxçıvan mətbuatı da yeni dövrə qədəm qoydu. Bu dövrdən Azərbaycanın suverenliyi, xalqın sosial-iqtisadi vəziyyətinin yaxşılaşması, siyasi sabitlik, iqtisadi gərginliyin aradan qaldırılması və digər ümummilli məsələlər Naxçıvanın söz tribunasının əsas qayəsini əhatə etdi. Azad söz və sərbəst fikir, kütləvi informasiya vasitələrinə yeni baxış da bu dövr üçün xarakterikdir.

Ağır günlər keçirən Naxçıvan Muxtar Respublikasının 1990-1993-cü illəri əhatə edən dövrü olduqca gərgin, ziddiyyətli, eyni zamanda təlabkar bir dövr idi. Bu məqamda muxtar respublika mətbuatı öz fəaliyyəti ilə xalqı azadlıq mübarizəsinə, həmrəyliyə çağırırdı. Şübhəsiz, bu çağırışların nəticəsi olaraq Naxçıvan Muxtar Respublikası SSRİ-nin tərkibindən çıxdı, SSRİ-nin bərpa edilməsi üçün keçirilən referendumu boykot etdi və dünya azərbaycanlılarının həmrəyliyi Naxçıvandan başladı.

1990-cı illərin əvvəllərində muxtar respublikanın rayon qəzetləri öz tirajını və dövriyyəliliyini xeyli azaltmış, ondan sonrakı illərdə isə fasilələrlə nəşr olunmuşdur. Xalqımızın ümummilli lideri, dahi rəhbər Heydər Əliyev Ali Məclisin Sədri kimi fəaliyyəti dövründə burada kütləvi informasiya vasitələrinin roluna böyük əhəmiyyət vermiş, jurnalistlərin peşə fəaliyyətləri üçün geniş imkanlar yaratmışdır. Bununla bərabər o, vaxtaşırı yerli mətbuat nümayəndələri ilə görüşür, nəyi və necə yazmağı, ümummilli maraqlara qulluq etməyin nədən ibarət olduğunu onlara aşılayırdı.

Müasir dövrdə mətbuat orqanlarına olan hərtərəfli dövlət qayğısı kütləvi informasiya vasitələrində keyfiyyət dəyişikliyinin yaranmasına səbəb olub. Bunun nəticəsidir ki, qəzetlərin maddi-texniki bazası mərhələli şəkildə möhkəmləndirilib, yaradıcılıq imkanları artırılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2000-ci il 29 mart tarixdə "Naxçıvan Muxtar Respublikasında dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətinin yaxşılaşdırılması tədbirləri haqqında" imzaladığı Sərəncam mətbuatın inkişafında yeni mərhələnin başlanğıcını qoydu. Həmin sərəncamın icrası ilə əlaqədar muxtar respublikada fəaliyyət göstərən qəzet redaksiyalarının maddi-texniki bazaları xeyli gücləndirildi.

Müstəqillik dövrümüzdə muxtar respublikada rayon qəzetlərinin adları ilə yanaşı, fəaliyyət istiqamətləri də genişlənib. Naxçıvan şəhərində "Nuh yurdu" (1996), Sədərək rayonunda "Oğuz yurdu" (2000), Kəngərli rayonunda isə "Yeni həyat" (2005) qəzetləri və "Naxçıvan" ictimai-siyasi və elmi-publisistik jurnalı (1998) fəaliyyətə başlayıb.

2010-cu ildə "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyinin yüksək maddi-texniki təchizatla təmin olunması nəticəsində rayon (şəhər) qəzetlərinin burada böyük formatda və rəngli çap olunması, ümumən, ölkəmizin mətbuat həyatında mühüm hadisəyə çevrildi.

Kütləvi informasiya vasitələrinə dövlət qayğısının növbəti ifadəsi olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2019-cu il 19 sentyabr tarixli Fərmanı ilə Ali Məclisin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu yaradılıb. Fondun yaradılması muxtar respublikanın mətbuat tarixində yeni inkişaf mərhələsinin əsasını qoydu.

Bu gün muxtar respublikada 8 rayon (şəhər) qəzeti dərc olunur. Naxçıvanın rayon mətbuatı fikir plüralizmini, əqidə, söz azadlığını, dövlətçilik amalını özünün başlıca meyarları hesab edərək ictimai-siyasi prosesləri operativ və tərəfsiz əks etdirməyə çalışan, milli maraqları üstün tutan mətbuat orqanları kimi fəaliyyət göstərir.

*XXI əsr bəşəriyyətin yeni sivilizasiya dövrüdür. Bu dövrün ən xarakterik xüsusiyyətlərinin, dəyərlərin formalaşması və onun prinsiplərinin mənimsənilməsi prosesində media, jurnalistika ən mükəmməl vasitədir. Mətbuat millətin inkişaf göstəricisi, tarixin yazılı salnaməsi, ictimai fikrin formalaşma strukturudur. Kütləvi informasiya vasitələri sırasında yaranma tarixinə görə televiziya, radio, internet və digər informativ vasitələrdən öncə gələn qəzetçilik anlayışı günümüzdə də aparıcı mövqeyini qorumaqda, müasirləşərək dövrün tələbinə uyğun formalaşmaqdadır.*

**Məmməd BABAYEV**
***Naxçıvan Dövlət Televiziyasının Ədəbi-bədii verilişlər redaksiyasının baş redaktoru***

# Təlimlər davam edir

Əlahiddə Ümumqoşun Orduda keçirilən tabor, divizion döyüş atışlı və atışsız taktiki təlimlər davam edir. Taktiki təlimlərdə haubitsalı artilleriya, aviasiya, hava hücumundan müdafiə və digər bölmələr arasında qarşılıqlı əlaqə sualları işlənilib.

Bölmələrin uzlaşmasının və səhra vərdişlərinin yüksəldilməsinin ən səmərəli ali forması döyüş atışlı taktiki təlimlər olduğu üçün tabor və divizionlarda keçirilən bu təlimlərə Əlahiddə Ümumqoşun Orduda xüsusi diqqət yetirilir.

Haubitsalı artilleriya divizionlarının döyüş atışlı taktiki təlimləri də döyüş vəziyyətinə tam yaxınlaşdırılmış şərtlərlə keçirilib.

Təlimlər zamanı aviasiya ilə qarşılıqlı əlaqə sualları işlənilib, hava hücumundan müdafiə bölmələri ilə birlikdə düşmənin hava hücum vasitələri və pilotsuz uçuş aparatlarına qarşı fəaliyyətlər icra edilib.

Şəxsi heyət taktiki və atəş tapşırıqlarının icrasında müsbət nəticələr göstərib.

**Nəriman NƏCƏFOV**

# Seminar-müşavirə keçirilib



*Naxçıvan şəhərindəki Avtovağzal Kompleksində sürücülərin iştirakı ilə seminar-müşavirə keçirilib. Tədbirdə Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidmətinin şöbə müdiri Elxan Novruzov çıxış edib.*

Vurğulanıb ki, ölkə Prezidentinin 2020-ci il 2 iyun tarixli fərmanlarına əsasən qanunvericilikdə müəyyən dəyişikliklər edilib. Belə ki, 1 yanvar 2021-ci il tarixədək taksi fəaliyyəti ilə məşğul olan şəxslər üçün sadələşdirilmiş verginin dərəcəsi 9 manatdan 4,5 manata, digər sərnişindaşıma fəaliyyəti ilə məşğul olan şəxslər üçün isə 1 oturacaq yerinə görə 1,8 manatdan 0,9 manata endirilib. Bununla yanaşı, fərqlənmə nişanı alan avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yükdaşımalarını həyata keçirən vergiödəyicilərinə minimum aylıq əməkhaqqının 6 faizi miqdarında, yəni 15 manat məcburi dövlət sosial sığortahaqqı təyin olunub.

Qeyd olunub ki, qanuna edilmiş digər əlavəyə görə vergiödəyicisi fərqlənmə nişanı almaq üçün Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidmətinə ərizə ilə müraciət etdiyi zaman fəaliyyət üçün sadələşdirilmiş verginin və məcburi dövlət sosial sığortahaqqının ödənilməsini təsdiq edən bank ödəniş sənədlərini təqdim etməlidir.

Bildirilib ki, Azərbaycan Respublikası Prezidentinin 18 iyun 2020-ci il tarixdə imzaladığı Fərmana əsasən Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin siyahısına Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidmətinin vəzifəli şəxsləri də daxil edilib. Bu isə o deməkdir ki, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 552-ci maddəsinə əsasən avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını həyata keçirən şəxslər Dövlət Nəqliyyat Xidməti əməkdaşının xidməti vəzifəsinin yerinə yetirilməsinə mane olmağa, o cümlədən qanunvericiliklə müəyyən olunmuş sənədlərin təqdim edilməməsinə görə əlli manat məbləğində cərimələnə bilərlər.

Sonra sürücüləri maraqlandıran suallar cavablandırılıb.

**Nail ƏSGƏROV**

# İnsan zehninin əyləncəli məşqi

## Muxtar respublikada şahmatın inkişafına yaradılan şərait bəhrəsini verməkdədir



***"Şahmat taxtasında bütün dənizlərdən daha çox macəra var", "Şahmat taxtası insan zehninin gimnastika zalıdır", "Döyüşlər ringdə baş verir, müharibələr isə lövhələr üzərində aparılır" – deyən filosofların fikrincə, dünyada dəqiq və sürətli hesablamaların harmoniyası hesab edilən şahmat asan göründüyü qədər də çətindir.***

Hazırda 1000-dən çox müxtəlif başlanğıc gedişi mövcud olan şahmat öz mənşəyini VI əsrə məxsus qədim hind "çaturanqa" oyunundan götürüb. Bu, qədim sanskrit dilindən "dörd qoşun bölməsi" kimi tərcümə olunur, bu qoşun özündə piyada, süvarilər, fil dəstələri və cəng arabalarını (qədimdə: ikitəkərli müharibə arabası) əhatə edir. Bu oyun VII əsrdən İranda "şahranc" adı ilə tanınır. "Şahmat" sözü isə oyunun məhz farsdilli versiyasında əmələ gəlib. Oyunçular rəqibin şahına həmlə etdikdə "Şah" və "Şah mat" (fars dilində "şah öldü") deyirlər.

İntellektual idman növü kimi şahmatın ölkəmizdə inkişafı ötən əsrin 70-ci illərinə təsadüf edir. Ulu öndər Heydər Əliyevin bu idman növünün inkişafına göstərdiyi diqqət nəticəsində Azərbaycanda şahmat məktəbləri formalaşmağa başlayıb. Naxçıvan Muxtar Respublikasında da şahmatın maddi-texniki bazasının möhkəmləndirilməsi və inkişaf etdirilməsi istiqamətində böyük işlər görülüb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov çıxışlarının birində şahmatın inkişafını xüsusi vurğulayaraq demişdir: ***"Uşaqların zehni inkişafında şahmatın xüsusi rolu var. Bu oyun onlara birinci olmağı, qalib gəlməyi təlqin edir. Bu, oğlanlar üçün daha çox vacibdir. Ona görə ki, onlar gələcəkdə torpaqlarımızın müdafiəçiləri olacaqlar. Şahmat gənclərdə özünəinam, liderlik keyfiyyətləri aşılayır. Odur ki, muxtar respublikada bu işə xüsusi diqqət yetirilir".***

Məktəblilərin əqli və məntiqi düşüncə qabiliyyətinin formalaşmasında xüsusi əhəmiyyəti olan şahmatın kütləviliyinin artırılmasına və bu sahənin inkişafına muxtar respublikada yüksək qayğı göstərilir. Bu qayğının nəticəsidir ki, Naxçıvan şəhərində Şahmat Mərkəzi, rayon mərkəzlərində yeni şahmat məktəbləri tikilib istifadəyə verilib, onların maddi-texniki bazası möhkəmləndirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində muxtar respublikada şahmat mərkəzi və məktəbləri 67 ən yeni müasir kompüter və 9 elektron lövhə, həmçinin şahmatla bağlı elektron tədris vəsaitləri ilə təchiz olunub. Eyni zamanda ümumtəhsil məktəblərində şahmatın tədrisi üçün siniflər ayrılıb, bu təhsil ocaqlarına, ümumilikdə, 490 ayaqlı, 500 asma və 3910 stolüstü şahmat dəsti verilib.

Hazırda muxtar respublikanın ümumtəhsil məktəblərinin I-IX siniflərində 5954 saat şahmat dərsi tədris edilir. Şahmatın tədrisi ilə 487 müəllim məşğul olur.

2019-cu il fevralın 1-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr haqqında" keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri təhsil işçilərinin üzərinə mühüm vəzifələr qoyaraq deyib: ***"Uşaq və gənclərin sağlamlığını qorumaq və möhkəmləndirmək, onlarda fiziki sağlam həyat tərzini formalaşdırmaq bütün təhsil müəssisələrinin əsas vəzifələrindəndir. Təhsil Nazirliyi böyümədə olan nəslin fiziki inkişafına, onların sağlamlığına qayğı ilə yanaşmalıdır".***

Ali Məclis Sədrinin şahmatın inkişafına olan diqqəti nəticəsində 2002-ci ildə Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyası yaradılıb və diyarımızda bu idman növünün inkişaf strategiyasının əsası qoyulub. Bundan bir il sonra Naxçıvan şəhərində gənclər arasında şahmat üzrə dünya çempionatının keçirilməsi, mundialda ideal şəraitin yaradılması və dünyanın 36 ölkəsindən gələn şahmatçıların ən yüksək səviyyədə qəbul edilməsi uşaq, yeniyetmə və gənclərdə şahmata olan həvəsi daha da artırdı. Uğurlu təşkilatçılıq, qonaqpərvərlik, sabitlik, həm də Naxçıvanda yeni mötəbər yarışların, dünya və Avropa çempionatlarının keçirilməsinin əsasını qoydu. Bu prosesin davamlı xarakter alması təkcə Naxçıvan şəhəri ilə məhdudlaşmadı, muxtar respublikanın bütün rayonlarında şahmatın tədrisinə diqqət artırıldı.

2018-ci il sentyabrın 8-də Şahmat Federasiyasının seçki-hesabat konfransında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Seymur Talıbov quruma yeni sədr seçildi və bununla Naxçıvanda şahmata baxış tərzi yeni istiqamətdə dəyişməyə başladı. İlk olaraq atılan düzgün addım, seçilən inkişaf strategiyası nəticəsində uşaqlarda, xüsusilə onların valideynlərində bu idman növünə maraq daha da artdı. Şahmatçıların yarış təcrübələrini artırmaq məqsədilə şahmat məktəbləri, idarə və təşkilatlar, dövlət qurumları, müxtəlif kateqoriyalar üzrə şəhər və rayon birincilikləri ilə yanaşı, muxtar respublika ərazisində mütəmadi olaraq tempo yarışları keçirilməyə başlanıldı. Bu da yeni istedadların üzə çıxarılmasına zəmin yaratdı. Federasiyada struktur dəyişikliyindən sonra məşqçi-müəllimlərin və zəka sahiblərinin maraq və rəqabət hissini daha da artırmaq məqsədilə mükafat fondu təsis edildi. Federasiya rəhbərinin şəxsi təşəbbüsü ilə yaradılan fondun məqsədi il ərzində uğur qazanan şahmatçılara və məşqçilərə mükafatların verilməsi onlar üçün əlavə stimul oldu.



Ötən dövr ərzində ümumtəhsil müəssisələrində yaradılan şəraitdən səmərəli istifadə, təhsil müəssisələrinin bacarıqlı və bilikli müəllimlərlə təmin olunması da diqqətdə saxlanılıb, Təhsil Nazirliyi tərəfindən müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması, şagirdlərin fiziki cəhətdən sağlam böyüməsi, asudə vaxtlarının səmərəli təşkili, xüsusi istedadı olan uşaqların üzə çıxarılması məqsədilə bir sıra tədbirlər keçirilib. Bu tədbirlərdən ən əhəmiyyətlisi müəllimlərin peşəkarlıq səviyyəsinin yoxlanılması məqsədilə sertifikasiya imtahanlarıdır. Belə ki, ötən müddət ərzində şahmat fənnini tədris edən müəllimlərin nəzəri və təcrübi biliklərinin yoxlanılması məqsədilə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının birgə təşkilatçılığı ilə 2019-cu il 11-14 fevral tarixlərində keçirilən sertifikasiyada şahmatı tədris edən 401, həmin ilin 6-10 sentyabr tarixlərində keçirilən sertifikasiyada isə 86 olmaqla, ümumilikdə, uğurlu nəticə göstərən 487 müəllimin ümumtəhsil məktəblərində şahmat fənnini tədris etməsinə icazə hüququ verən sertifikat təqdim olunub.





Ötən illərdə olduğu kimi, 2019-2020-ci tədris ilində də şahmatın inkişaf etdirilməsi, bu sahə üzrə istedadlı uşaq və gənclərin aşkar edilməsi və onların qabiliyyətlərinin üzə çıxarılması məqsədilə Uşaq-Gənclər Şahmat məktəbləri tərəfindən 246 şahmat yarışı təşkil edilib, şagirdlərin şahmat avadanlıqlarından və idman obyektlərindən düzgün və mütəmadi istifadə etmələri ilə bağlı maarifləndirici tədbirlər təşkil olunub. Həmçinin təhsil müəssisələrində keçirilən şahmat yarışları ilə bu sahədə istedadlı şagirdlərin üzə çıxarılmasına nail olunub, həmin uşaqlar müvafiq şahmat dərnəklərinə cəlb edilib.

Muxtar respublikamızda şahmatın inkişafı istiqamətində yaradılan əlverişli şəraitin nəticəsidir ki, şagirdlərimiz bir sıra muxtar respublika və respublika səviyyəli yarışlarda, eləcə də 2011-ci ildən keçirilən ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş "Naxçıvan Open" Beynəlxalq Şahmat festivallarında iştirak edib, layiqli yerlər tutublar. Bundan başqa, 2019-2020-ci tədris ili ərzində keçirilən Azərbaycan birinciliyində 2 şagird II, 7 şagird III yerlərə layiq görülüb, muxtar respublika birinciliyində isə, ümumilikdə, 15 şagird qalib olub.

Şahmatın tədris keyfiyyətinin yüksəldilməsi təkcə müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması ilə məhdudlaşmayıb, eyni zamanda şahmatın tədrisi sahəsində qazanılan uğurlar, eləcə də tədrisin səviyyəsinin yüksəldilməsi istiqamətində aparılan islahatlar tədris proqramına uyğun şahmata aid dərs vəsaitlərinin çap edilməsinə də zəmin yaradıb. Ümumtəhsil məktəblərinin şahmat fənninə dair dərslik, dərs vəsaiti və digər tədris-metodik ədəbiyyatlara olan ehtiyacının qarşılanmasında Şahmat Federasiyası yaxından köməklik göstərib. Ötən müddət ərzində şahmatın yüksək səviyyədə tədrisini təmin etmək üçün federasiya tərəfindən şahmatın əsaslarının şagirdlərə öyrədilməsində müəllimlərə yaxın köməkçi olan "Pillə-pillə" kitabı və şagirdlərin şahmata olan marağını və artan tələbatı nəzərə alaraq dərslik kimi nəzərdə tutulan "Debütdə buraxılmış səhvlərə aid 1000 oyun" kitabları nəşr olunaraq ümumtəhsil məktəblərinə verilib. Şahmatın sirlərindən və əsaslarından ibarət olan bu kitablar zəka oyununun tədrisində həm müəllimlər, həm də şagirdlər üçün dəyərli mənbə olmaqla, bu fənnin tədrisi səviyyəsinin yüksəldilməsinə və kütləviliyin əldə edilməsinə müsbət təsir göstərib. "Pillə-pillə" və "Debütdə buraxılmış səhvlərə aid 1000 oyun" kitabı nəinki müəllim və şagirdlərimizin, həmçinin bütün şahmatsevərlərin stolüstü kitabına çevrilib.




Hazırda şahmat məktəblərində, ümumilikdə, 250-dən artıq qrup fəaliyyət göstərir və bu qruplarda 3000-dən artıq gənc şahmatla məşğul olur. Son illərdə muxtar respublikanın bütün ümumtəhsil məktəblərində şahmat siniflərinin yaradılması, həftədə 2 saat olmaqla, şahmat dərslərinin tədrisinə başlanılması gənclərin bu idman növünə marağını xeyli artırıb. Mütəmadi olaraq Şahmat Mərkəzində müəllim və şagirdlər üçün bütün ümumtəhsil və şahmat məktəblərinin qoşulduğu interaktiv dərslər keçilir.

Ümumiyyətlə, son üç ildə muxtar respublika şahmatçıları böyük uğurlar qazanaraq Naxçıvanın şahmat ənənələrini layiqincə təmsil edib və etməkdədirlər. Yaxın tarixə nəzər yetirək, 2018-ci ildə zəka sahiblərimiz Türkiyə Respublikasının Kahramanmaraş, Ordu, Ankara, Malatya və Hatay şəhərlərində keçirilən beynəlxalq turnirlərdə mübarizə apararaq böyük uğurlar qazanıblar. Həmçinin şahmatçılarımız Gürcüstan Respublikasının Poti, Batumi, Rusiyanın Moskva şəhərlərində təşkil olunan yarışlarda, eləcə də Latviyanın Riqa şəhərində keçirilən Avropa çempionatında mübarizə aparıblar. Növbəti ildə də zəka sahiblərimizin beynəlxalq arenalarda keçirilən yarışlarda iştirakı təmin edilib, onlar çıxış etdikləri yarışları qalib kimi tərk ediblər. Türkiyə Respublikasının Ankara, Sivas, Burdur, Mersin və Antalya şəhərlərində təşkil olunan turnirlərdən muxtar respublikanın zəka sahibləri Vətənə medallarla qayıdıblar. FİDE ustamız Sadiq Məmmədov isə Rumıniyada keçirilən Avropa çempionatında bürünc medal qazanmaqla bir ilkə imza atıb. Cari ildə isə məlum səbəblərə görə Şahmat Federasiyası tərəfindən onlayn yarışlar və dərslər, xüsusilə diqqət mərkəzində olub. Bütün rayonlar üzrə istedadlı şahmatçılar müəyyənləşdirilərək qruplara bölünüb və bu şagirdlərə federasiyanın müəllimləri tərəfindən mütəmadi olaraq onlayn dərslər keçilib.

Həmçinin Şahmat Federasiyası ənənəvi olaraq hər ilin yekununa dair tədbir keçirir, bir neçə nominasiya üzrə qaliblər müəyyənləşir, il ərzində nəticəsi olan bütün şahmatçılar və qaliblər təltif olunurlar.

*20 iyul dünyada Beynəlxalq Şahmat Günü kimi qeyd olunur. Bu bayram 1966-cı ildən YUNESKO-nun rəsmi bayram günləri təqviminə salınıb. Bayramın məhz bu gün keçirilməsinin tarixi təsadüfi deyil. Belə ki, 1924-cü ilin məhz iyul ayının 20-də Fransanın paytaxtı Paris şəhərində Ümumdünya Şahmat Federasiyası (hazırkı FİDE) yaradılıb. 96-cı dəfədir, qeyd olunacaq bayram, Azərbaycan da daxil olmaqla, dünyanın 195 ölkəsində keçirilir. Əminik ki, Naxçıvanın bütün şahmatçıları muxtar respublikada idmanın, xüsusilə də şahmatın inkişafına göstərilən dövlət qayğısından, yaradılan hərtərəfli şəraitdən bəhrələnərək gələcəkdə karyeralarında uğurlar, beynəlxalq arenada qələbələr qazanmaqla diyarımızın idman nüfuzunu daha da yüksəldəcək, şahmatsevərlərimizi sevindirəcəklər.*

**Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

Şərur rayon Xanlıqlar kənd sakini Həsənov Salman Həsən oğlunun adına olan JN-216 inventar nömrəli, 10218018 kodlu torpağın mülkiyyətə verilməsinə dair dövlət aktı itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 528